**Kafedra haqqında**

Azərbaycan dili fənni «Xarici dil» və «Rus dili» kimi «Dillər» kafedrasının tərkibində hələ 30-cu illərdən tədris olunmağa başlamışdır. 1966-cı ildən rus, Azərbaycan dilləri xarici dillərdən ayrılaraq, ayrıca kafedrada birləşdi. Həmin vaxtlar «Rus dili və Azərbaycan dili» kafedrasına dos. Cəlil İbrahimov (1966-1968), dos. Aişə Kazımova (1969-1972) rəhbərlik etmişlər. 1972-ci ildən müstəqil «Azərbaycan dili» kafedrası yaradılmışdır. 1972-1982-ci illərdə fil.e.n., dosent Vəli Məmmədov yeni yaranmış kafedranın müdiri işləmişdir.

Sonralar kafedraya dos. Məmməd Əliyev (1983-1987), prof.Tofiq Əhmədov (1990-1999), prof. Həbib Zərbəliyev (2000-2005) başçılıq etmişlər. Müxtəlif vaxtlarda dos. Elmira Cahangirova (1982-1983), prof. Maarifə Hacıyeva (1987-1990), Vəli Məmmədov (1998-2000) kafedranın müdir əvəzi işləmişlər. Hal-hazırda "Azərbaycan dili" kafedrasına filologiya elmləri doktoru, professor, Əməkdar mədəniyyət işçisi Tofiq Əbdülhəsənli rəhbərlik edir.

"Azərbaycan dili" kafedrası tərəfindən elmi-tədqiqat işləri günün tələbləri səviyyəsində davam etdirilir. Kafedra əməkdaşlarının yerinə yetirdiyi elmi-tədqiqat işlərində Azərbaycan dilində İşgüzar və akademik kommunikasiyanı müxtəlif yönlərdən araşdırır, habelə fonetik, morfoloji, leksikoloji və sintaktik özünəməxsusluqları geniş şəkildə tədqiq edir.Elmi-tədqiqat işlərinə AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu tərəfindən hər il rəy verilir. Tədqiqatlar zamanı Azərbaycan dilinin öyrədilməsinin təşkili, dərs prosesinin keyfiyyətinin yüksəldilməsi yolları, tədrisin təşkilinə sistemli yanaşma metodologiyasının işlənib hazırlanmasına nail olunmuşdur; Azərbaycan və türk dillərinin, habelə klassik və müasir ədəbiyyatımızın paralel öyrənilməsinin səviyyəsinin artırılması məqsədilə müxtəlif dərs vəsaitləri, yanaşma metodları, interaktiv sistemlər işlənib hazırlanmışdır; Rus və ingilisdilli qruplarda Dövlət dili tədrisində müasir informasiya texnologiyalarının tətbiqi istiqamətində elmi araşdırmalar aparılmış, maraqlı elmi nəticələrə nail olunmuşdur.

Kafedra tədqiqat işlərini müxtəlif elmi istiqamətlərdə – İşgüzar və akademik kommunikasiyanın tədrisində yeni yanaşmalar sisteminin tətbiqinə, Azərbaycan dilinin qrammatik qanunauyğunluqları və üslubi istiqamətləri, iqtisadçı kadrların hazırlanmasında **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya fənninin qarşısında duran vəzifələr, aparılacaq gələcək tədqiqatlarının istiqamətlərinə və digər müasir yanaşmalara önəm verilir.**

**Kafedranın professor – müəllim heyətindən prof. T.Əbdülhəsənli, dos. C. Allahverdiyev, dos. T. Xəlilova, dos. M. Əmrahovanın "Azərbaycan dilində**

**işgüzar və akademik kommunikasiya" adlı dərsliyi, dos.Ç.Qəhrəmanova və dos.A.Paşayevanın "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" adlı dərsliyi, dos.Ç.Qəhrəmanovanın "Əcnəbi tələbələr üçün Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" adlı dərsliyi,** prof. T.Əbdülhəsənli, S.Hüseynova və A.Rzainin "Azərbaycan dili və nitq mədəniyyəti" dərsliyi, prof. T.Əbdülhəsənlinin və dos. A.Hüseynovanın "İşgüzar yazışmalar" adlı dərsliyi, dos. A.Rzainin «Nitq mədəniyyəti və üslubiyyat» adlı dərs vəsaiti, «Alınma məişət leksikası» adlı dərs vəsaiti, prof. T.Əbdülhəsənli, dos. F.Kazımova və baş müəl. İ.Sultanovanın «Azərbaycan dili», prof. T.Əbdülhəsənli və dos.A.Hüseynovanın «İşgüzar Azərbaycan dili», prof. M.Hacıyevanın «Azərbaycan dili (fonetika)», «Ədəbi çeşmə», dos. S.Hüseynovanın «Azərbaycan dili», dos. A.Rzainin «Azərbaycan dilində söz yaradıcılığı», dos.K.Quliyeva və baş müəl. S.Əhmədovanın «Tərcümə mətnləri» və s. işləri nəşr olunmuşdur.

*1."Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" dərsliyi*

2. *"Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənni üzrə mühazirə mətnləri*

3. *Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənni üzrə prezentasiyalar(əyani)*

4. *Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənni üzrə prezentasiyalar ( qiyabi)*

5. *Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənni üzrə sillabuslar(əyani)*

6. *Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənni üzrə sillabuslar (qiyabi)*

7. *Azərb. dili və nitq mədəniyyəti. MÜHAZİRƏ mətnləri*

8. *Az.dili və nitq mədəniyyəti. PREZENTASİYALAR*

*9.İŞGÜZAR YAZIŞMALAR – PREZENTASİYALAR*

*10.İŞGÜZAR YAZIŞMALAR Mühazirə mətnləri*

11. *"Azərbaycan dili" kafedrasının SİLLABUSLARI*

Kafedrada tədris olunan fənlər:

- Azərbaycan dilində işgüzar və akademik kommunikasiya (əsas fənn)
- İşgüzar yazışmalar
- Azərbaycan dili (əcnəbilər üçün)
- Nitqin inkişafı (əcnəbilər üçün)
- Nitqin elmi üslubu (əcnəbilər üçün)

Son illərdə “Azərbaycan dili” kafedrası tərəfindən elmi-tədqiqat işləri də uğurla davam etdirilmişdir. “Azərbaycan dilində işgüzar və akademik kommunikasiya” nın bütün özəllikləri, özünəməxsusluqları geniş şəkildə tədqiq olunmuş, tələbələrin əlçatanlığının təmin edilməsi üçün müvafiq tədqiqatlar aparılmışdır.Kafedra əməkdaşlarının yerinə yetirdiyi elmi-tədqiqat işlərinə AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu tərəfindən rəy verilmiş və kafedra əməkdaşlarının tədqiqatları yüksək qiymətləndirilmişdir.